Mükafatlandırma

**Elm və Təhsil Nazirliyi və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş "Ən yaxşı təqdimat" müsabiqəsinin qalibləri mükafatlandırılıb. Tədbirdə Baş nazirin müavini Əli Əhmədov, Milli Məclisin üzvləri, elm və təhsil naziri Emin Əmrullayev və digər rəsmilər iştirak ediblər.**

# "Ən yaxşı təqdimat"larda Ulu öndər sevgisi





Müsabiqə ulu öndər Heydər Əliyevin zəngin siyasi irsini, şərəfli həyat və fəaliyyətini gənc nəslin hərtərəfli öyrənməsi məqsədilə həyata keçirilib. Respublika səviyyəsində təşkil olunan müsabiqəyə bütün regionlardan 2 min 944 şagird qatılıb. Hər bir rayon və şəhərdən müəyyən olunmuş kvotaya əsasən, 90 şagird ölkə turuna seçilib. Bu mərhələdə iştirak hüququ qazanmış şagirdlər 10 mövzudan 1-i üzrə sınağa çəkiliblər və 34 nəfər qalib elan olunub. Onlardan 7 nəfər 1-ci, 11 nəfər 2-ci, 16 nəfər isə 3-cü yerə layiq görülüb.

Baş nazirin müavini Əli Əhmədov böyük ənənəyə malik müsabiqənin 20 ildən bəri uğurla keçirildiyini söylədi. Elm və təhsil naziri Emin Əmrullayev müstəqil Azərbaycanın dövlət quruculuğunda Heydər Əliyev irsinin məktəblilər arasında geniş təbliği baxımından müsabiqənin əhəmiyyətini qeyd etdi. Nazir sonra qalibləri, onların müəllim və valideynlərini təbrik etdi.

Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ulu öndər Heydər Əliyevin hər zaman Azərbaycan gəncliyinə önəm verdiyini dedi. Bildirdi ki, vaxtilə gənclərin dünyanın qabaqcıl universitetlərində təhsil almaları baxımından ölkəmizdə böyük işlər görülüb. Bu gün də həmin ənənə yaşadılır.

Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktoru Eşqi Bağırov "XQ"-yə açıqlamasında dedi ki, bu müsabiqə ölkəmiz üçün böyük hadisədir, şagirdlərin hazırlanması, inkişafı baxımdan mühüm önəm daşıyır.

Mərsimdə ulu öndər Heydər Əliyev haqqında videoçarx nümayiş etdirildi. Azərbaycan Milli Konservatoriyasının nəzdində Respublika İncəsənət Gimnaziyası şagirdlərinin və 2 nömrəli Uşaq–Gənclər İnkişaf Mərkəzinin "Təbəssüm" rəqs qrupunun ifasında musiqi nömrələri səsləndirildi, rəqslər nümayiş etdirildi.

Biz qaliblərlə də söhbət etdik. Şamaxıdan Əminə Şirəliyeva, Sumqayıtdan Hüseyn Abbaszadə, Naxçıvandan Fidan Babayeva müsabiqədə uğurlu iştiraklarından qürur duyduqlarını bildirdilər və onlara yaradılan şəraitə görə təşəkkürlərini bildirdilər.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***